# Corc Oruell

# 1984

Tərcüməçi:
Vilayət Quliyev

QANUN NƏŞRİYYATI

George Orwell

# 1984

İnsanların düşüncəsi manipulyasiya və təhdid yolu ilə kontrolda saxlanılır. Xalqı yalnız bir partiyanın yaratdığı sərt siyasi rejim idarə edir. Bu idarəçiliyin yeganə üsulu qorxudur. Hər yerdə Böyük Qardaşın rəsmləri və səsidir O, tanrı kimi hər şeyə nəzarət edir. Onun rəhbərliyi ilə cəmiyyət rejimin qanun-qaydalarına əməl etməyə yönəldilir. Fərqli düşünən insanın beyni yuyulur və o, tezliklə ümumi qəlibə düşür.

Distopiya janrının ən yaxşı nümunələrindən sayılan bu roman həm də ədəbiyyatın totalitar təfəkkürə və despotik idarəçilik üsuluna qarşı mübarizəsinin ən parlaq örnəklərindən biridir.

## TOTALİTARİZMİ VAHİMƏYƏ SALAN YAZIÇI

Çağdaş dünya ədəbiyyatı tarixinə Corc Oruell təxəllüsü ilə daxil olan Erix Artur Bleyer (1903-1950) XX əsr ingilis ədəbiyyatının, ədəbi tənqid və jurnalistikasının tanınmış nümayəndələrindən biridir. Onun yaradıcılığı özünün yüksək intellektual səviyyəsi, ictimai haqsızlıq və ədalətsizliklərə qarşı barışmaz ruhu, totalitar təfəkkür və idarəçilik üsuluna qarşı mübarizliyi ilə seçilir.

Yazıçı qısa ömür yaşasa da, yaradıcılığı və fəaliyyəti kifayət qədər geniş olmuşdur. Oruelli bir qayda olaraq ötən əsr ingilis mədəniyyətinin ən yaxşı tarixçisi və ən yaxşı esselər müəllifi hesab edirlər. O, nəsrlə birlikdə qələmini eyni uğurla bədii yaradıcılığın digər sahələrində – poeziya, ədəbi tənqid və ssenari sahəsində də sınamış, habelə çoxsaylı ictimai-siyasi məzmunlu məqalələri ilə yaşadığı dövrün mühüm ədəbi-ictimai problemlərini işıqlandırmağa çalışmışdır.

Corc Oruell həyatı ilə əsərləri, düşüncələri ilə əməlləri arasında düz mütənasiblik olan yazıçılardandır. O, insanların hürr yaşamaq haqqını yalnız kitablarında deyil, gerçək həyatda da müdafiə etmiş, totalitarizmə qarşı hətta silahla da mübarizə aparmışdır. Yaradıcılığında toxunduğu kəskin və qlobal problemlər Corc Oruellin yaradıcılığının və şəxsiyyətinin bu gün də dünya ictimai fikrinin mərkəzində qalmasında mühüm rol oynamışdır.

## 1

Corc Oruell 1903-cü ildə Hindistanın Benqal əyalətində, sonralar "aşağı-yuxarı səviyyəli orta təbəqə kimi" xarakterizə etdiyi ingilis ailəsində doğulmuşdu. Atası Riçard Bleyer Hindistan mülki xidmətində çalışırdı. Anası İda Mael Bleyer yarı fransız idi. Oğlunun ədəbi zövqünün formalaşmasında və bədii yaradıcılığa meyil göstərməsində müəyyən təsiri olmuşdu. Ailədə Erix Arturdan başqa ondan beş yaş böyük və beş yaş kiçik olan daha iki bacısı vardı. Bir yaşında ikən böyük bacısı ilə birlikdə İngiltərəyə gətirilən Erixin uşaqlıq və ilk gənclik illəri Londonda keçmişdi.

O, 1917-1921-ci illərdə əvvəlcə Vellinqton kollecinin, sonra isə İngiltərənin nüfuzlu təhsil müəssisələrindən sayılan İton kollecinin tələbəsi olmuşdu. Kolleci bitirdikdən sonra universitet təhsili almağa maddi imkanı çatmadığından altı il Hindistan İmperiya polisinin əməkdaşı kimi Birmada (indiki Myanma – V.Q.) xidmət etmişdi. Bu seçim müəyyən mənada həm də şəxsi əlaqələrlə bağlı idi. Erix Artur Bleyerin nənəsi Birmada yaşayırdı. Burada özünün torpaq sahəsi və mülkü vardı.

Birmadakı xidmət illəri polis zabiti Erix Bleyerin şəxsiyyət kimi yetişməsində, həyatı və insanları daha dərindən dərk etməsində müstəsna rol oynamışdı. Həmyaşıdlarının hələ universitet skamyası arxasında oturduqları dövrdə 21 yaşlı Erix Birmanın Tvanti əyalətində iki yüz mindən çox insanın təhlükəsizliyi üçün məsuliyyət daşıyırdı. Lakin bir tərəfdən tropik iqlim şəraitində malyariya xəstəliyinə tutulması, o biri tərəfdən isə özünü tamamilə bədii yaradıcılığa həsr etmək qərarı 1927-ci ildə Erix Artur Bleyerin polisdən istefa verməsi və İngiltərəyə dönməsi ilə nəticələndi. Birmada yaşadığı illər onun "Birma günləri" romanında (1934), habelə "Edam" (1931) və "Fil ovu" (1936) kimi hekayələrdə öz əksini tapmışdır.

1928-1929-cu illərdə Bleyer “gerçəkliyi daha yaxından öyrənmək” məqsədi ilə təxminən on beş ay Parisdə yaşamış, sevimli yazıçısı Cek London kimi “həyat universiteti” keçmişdi. İngiltərəyə, valideynlərinin yaşadığı Southwolda qayıdandan sonra isə bir müddət işsiz qalmışdı. Nəhayət, yerli məktəbdə idman müəllimi vəzifəsinə düzəlmişdi. Fransa təəssüratlarını özündə əks etdirən “Paris və Londonla aşağı-yuxarı” kitabını da Southwold’da tamamlamışdı. Həmin vaxta qədər “Horizon” və “Adel-phi” məcmuələrində həqiqi ad və soyadı ilə çıxış edən Erix Artur Bleyer yeni əsərinin çapının reallaşdığı ərəfədə özünə təxəllüs götürmək qərarına gəlmişdi. Dostlarına göndərdiyi məktublarda P.S.Burton, Kennet Mayls və Corc Oruell təxəllüsləri arasında tərəddüd etdiyini bildirmişdi. Nəhayət, son qərar verilmişdi. Uğurlu ədəbi debüt sayılan “Paris və Londonla aşağı-yuxarı” kitabı həm də ingilis ədəbiyyatına Corc Oruell adlı müəllifin gəlişinin müjdəçisi olmuşdu. Kitab 1933-cü ildə təxminən Londonla eyni vaxtda Nyu-Yorkda işıq üzü görmüşdü.

“Birma günləri” və “Keşişin qızı” romanlarının nəşri Corc Oruellin ədəbi aləmdəki mövqelərini daha da möhkəmləndirdi. 30-cu illərin əvvəllərindən başlayaraq o, həm də esseist və ədəbiyyat tənqidçisi kimi çıxış etməyə başlamışdı. Özü hələlik siyasətə maraq göstərməsə də, bəzi dostlarının fəhlə hərəkatı ilə bağlılığı və Müstəqil Leyboristlər Partiyasının üzvü olması yazıçının mövzu seçiminə təsirsiz qalmamışdı.

1937-ci ildə Solçu Kitab Klubunun (Left Book Club) xətti ilə çap olunan “Viqan Perə gedən yol” Corc Oruellin ədəbi axtarış və ictimai baxışlarındakı ciddi təbəddülatdan xəbər verirdi. Daha çox sosioloji tədqiqatı xatırladan bu əsərin əsasında Böyük Britaniyanın cənubundakı Lankşir və Yorkşir qraflıqlarında, kömür sənayesində çalışan fəhlələrin ağır həyatı, yoxsul və

məşəqqətlə dolu məişəti öz əksini tapmışdı. Yazıçı gerçəkliyin daha dəqiq əksi üçün çətinlik və məhrumiyyətin hökm sürdüyü fəhlə rayonlarını aylarla gəzib-dolaşmışdı. "Vigan Perə gedən yol" ingilis sənədli nəsrinin (nonfiction) ən yaxşı nümunələrindən biri sayılırdı. İkinci hissəsi siyasi tənqidlər və ictimai qınaqla zəngin olan bu kitab çap ediləndə müəllif artıq İspaniyada Beynəlmiləl briqadanın tərkibində faşizmə qarşı döyüşürdü.

Corc Oruell Barselonaya Fransa üzərindən, bir neçə ay əvvəl evləndiyi gənc xanımı Elian O`Saqnessi ilə birlikdə gəlmişdi. Qələm dostu, "New English Weekly" məcmuəsinin redaktoru Filip Marretə məktubunda "Bu faşizmi kimsə durdurmalıdır!" – yazan Oruell Barselonada köhnə tanışı, İngiltərə Müstəqil Leyboristlər Partiyasının tanınmış nümayəndələrindən olan Con Mak-Neirə də açıq şəkildə "Kitab yazmaq ikinci dərəcəli işdir. Mən faşizmə qarşı vuruşmağa gəlmişəm!" – demişdi.

Birmadakı altı illik polis təcrübəsi Kataloniyada Corc Oruellin işinə yaramışdı. O, tezliklə müharibə atmosferinə uyğunlaşmış, özünü təhlükə və çətinliklərdən qorxmayan könüllü kimi göstərə bilmişdi. Lakin Sovet İttifaqının təşkilatçılığı və maddi-texniki yardımı ilə formalaşan Beynəlmiləl briqadanın İspaniyada faşizmin kökünü kəsib ondan heç də az təhlükəli olmayan başqa bir təlimi – kommunizmi yaymaq üçün alətə çevrildiyini görən Corc Oruell 1937-ci ilin yayında bu ölkəni qatı antikommunist və antistalinist kimi tərk etmişdi. İspaniya vətənpərvərlərinin öz aralarında yaranan təfriqə, habelə Britaniya kommunist mətbuatının həqiqəti təhrif etməsi də qərarın qətiləşməsinə təsirsiz qalmamışdı. Üstəlik 1937-ci il mayın son günlərində snayper atəşinə hədəf olan Corc Oruell boğazından yara almış, hətta bir müddət danışıq qabiliyyətini itirmişdi. Nəhayət, özünün və xanımının trotskiçi kimi həbs

olunacaqları xəbəri qəti addım atmağa təkan vermişdi. Gərgin, həyəcanlı günlərdən sonra yazıçı bir müddət Fransada müalicə olunmuş, sonra vətənə dönmüşdü. İştirakçısı olduğu vətəndaş müharibəsinin acı dərsləri onun "Kataloniyaya məhəbbətlə" kitabında əksini tapmışdır.

İspaniyada üzləşdiyi ağır fiziki və mənəvi sınaqlardan sonra Corc Oruell, belə demək mümkünsə, ədəbiyyatın sakit limanına qayıtmaq qərarı vermişdi. 1940-cı ildə həyatının son günlərinə qədər yaşadığı Londonda məskunlaşmışdı. Burada "New English Weekly", "New Statesman", "Listener", "Time and Tide" kimi geniş oxucu şəbəkəsinə malik məcmuələrlə əməkdaşlıq edirdi. İkinci Dünya müharibəsinin vüsət aldığı 1941-ci ildə Corc Oruell hərbi xidmətə tam yararsız sayılmasına baxmayaraq, bir tərəfdən könüllü kimi London hava hücumundan müdafiə batalyonuna qoşulmuş, o biri tərəfdən isə BBC-nin Şərq xidmətində fəaliyyətə başlamışdı. O, burada əsasən Hindistan və Cənub-Şərqi Asiya üçün "Səs" adlı ümumən təbliğat xarakterli, bu ölkələrin xalqlarını Britaniya maraqlarını müdafiə etməyə çağıran ictimai-ədəbi proqramların hazırlanmasında iştirak edirdi. Redaksiyadakı fəaliyyəti Corc Oruellə zəmanəsinin Herbert Uells, Tomas Eliot (gələcək Nobel mükafatı laureatı), Edvard Forster, Mülk Rac Anand, Uilyam Empson kimi görkəmli yazıçı və mədəniyyət xadimləri ilə görüşməyə, onlardan müsahibə almağa imkan yaratmışdı.

Deyilənə görə, yazıçının redaksiyadakı iş otağının nömrəsi 101 idi və sonralar həmin nömrə alleqorik obraz kimi "1984" romanında əks olunmuşdur.

Daha mütəhərrik fəaliyyət sahəsi axtaran Corc Oruell 1943-cü ildə məşhur radiostansiyanı tərk etmiş, sol təmayüllü "Tribune" qəzetində ədəbi redaktor vəzifəsində çalışmağa başlamışdı. Müharibənin son aylarında əsas döyüş zonalarında

olmasa da, Fransa və Almaniyada hərbi müxbir kimi fəaliyyət göstərmişdi. Öz etirafına görə, BBC-dən getməsinin əsas səbəbləri sırasında radiostansiyada daxilən razılaşmadığı, ürəyinə yatmayan təbliğat materialları hazırlanmasında iştirakı olmuşdu. Oruell yazırdı ki, hər dəfə belə verilişlər üzərində işləyəndə özünü "çox çirkli ayaqqabı ilə təpiklənən portağal kimi hiss edirdi".

Müharibə illərində Corc Oruell İngiltərənin məhsuldar və fəal publisisti kimi tanınmışdı. "Newsweek" jurnalı onu "öz dövrünün ən yaxşı jurnalisti və Hazlittdən sonra ingilis esseistikasının memarlarından biri" adlandırmışdı. İkinci Dünya savaşının antihitler koalisiyasının qələbəsi ilə başa çatdığı 1945-ci ildə o, mütəmadi şəkildə "As I Please" guşəsini aparmaqla yanaşı, dövrü mətbuat səhifələrində yüzə yaxın məqalə və esse çap etdirmişdi. Müharibənin son iki ili Oruell üçün həm də şəxsi planda ağır və faciəli olmuşdu. Bu müddət ərzində o, həyat yoldaşını, anasını və kiçik bacısını itirmişdi. Yazıçıda 30-cu illərin əvvəlindən ilk təzahürlərini göstərən vərəm xəstəliyi ağır hərb illərində daha da şiddətlənmişdi. Məhz belə mənəvi və maddi gərginlik şəraitində Corc Oruell həyatının iki mühüm əsərini – "Heyvanıstan" povestini və "1984" romanını yazıb başa çatdıra bilmişdi. "Heyvanıstan" 1945-ci ildə, "1984" isə vəfatından altı ay əvvəl – 1949-cu ilin iyun ayında nəşr olunmuşdu. "Heyvanıstan"nın nəşri Oruellə yalnız böyük ədəbi şöhrət deyil, həm də həyatında ilk dəfə yaxşı yaşamağa imkan verən maddi təminat gətirmişdi.

Yazıçı 1949-cu ilin oktyabrında Conya Brovnell ilə evlənmişdir. Lakin onların birgə həyatı cəmisi üç ay sürmüşdür. 1950-ci il yanvarın 21-də Corc Oruell 46 yaşında vəfat etmişdir. Onun Oksforddakı "All Saints" kilsəsinin qəbiristanlığında yerləşən sadə məzar daşının üzərində məşhurlaşdığı ədəbi təxəllüsü deyil, həqiqi adı və soyadı həkk olunmuşdur. Oru-